Kaspi 2019.- 9-12 noyabr.- S.22.



# Bir adam yol gedir...



İlhamə Qəsəbova



Məmməd İsmayıl fəlsəfi şairdir. Onun şeirlərinin məna yükü ağırdır. Başdan-ayağa folklordu, xalqın yaddaşıdır Məmməd İsmayıl. Xalqın içində böyüyən, xalqla tarixləşəndir Məmməd İsmayıl. Şeirlərində insanlara ibrət olan ustad sözlərin çalarlarını o qədər yerində verir ki, bu, onun həm istedadından, həm də qələminin gücündən xəbər verir. Bəşəri mövzulardan yan keçməyən ustad anaya laqeyd olan övladlara örnək olur. Ana məhəbbəti, ana sevgisi ustadın qəlbinin ən sağlam yerində uca bir heykəl qurub. Həm ana, həm ata olan bir dul qadın, min bir əzab-əziyyətlə böyütdüyü oğlunun çiyinləri üzərində son mənzilə yola salındıqda, ruhu göylərdə uçar, sevincindən qanad açar. Gülzar ana xoşbəxt ana olub ki, Vətən üçün, xalq üçün şəxsiyyətli övlad yetişdirə bilib. Həm də ona görə xoşbəxt ana olub ki, övlad çiynində son mənzilə yollanıb.

*Ana, ağır olan cənazən deyil,*
*Analıq haqqındır çiyinlərimdə...*

- deyə için-için sızlayan oğul, həm də özü bilmədən Cəfər Cabbarlının ana obrazının fəlsəfəsini yenidən yaradır.

*Nə deyim həyatın qanunlarına,*
*Gör niyə fəryadlar qoparıram mən.*
*Sən məni dünyaya gətirdin, ana,*
*Sənisə dünyadan aparıram mən... -*

Bütün övladlar kimi Məmməd İsmayılın da ana sevgisi ürəyində dərin iz buraxıb. Sən məni dünyaya gətirdin, ana, sənisə dünyadan aparıram mən... - deyən ustad şair bu işıqlı dünyaya bizi 9 ay ürəyinin başında gəzdirərək gətirən ananı biz qaranlıq dünyaya çiyinlərimizdə aparırıq deyə təlatüm keçirir.

Axı, gözünü açandan təkcə ana sevgisi görüb, ana nəvazişi görüb Məmməd İsmayıl. Uşaqlığından qəlbi qırıq böyüyüb. Həmişə gözü yolda qalıb. Ata yolu gözləyib. Gəlişinə inanmasa da, ümidini də kəsməyib.

Özünün də etiraf etdiyi kimi: Yolu hərdən-hərdən kəndlərinə düşər. Orda anasından ömürlü, özündən vəfalı bir kiçik daxma var. Hələ də tək-tənha qalan daxma davadan geri dönməyən atasını gözləyir. İndi qapısı bağlı yetim, tənha qalan ev bir zamanlar sevinc-nəşə dolu idi. Ailə başçısı olmasa da, ana-bala qəzavü-qədərə alışmışdılar. Bir zamanlar 8 yaşında ikən o evdə bayram sevinci yaşayan balaca Məmməd yaşadığı evin də özü kimi yetim qalacağını heç ağlına da gətirmirdi. Bir zamanlar "Dünyanı anasız yiyəsiz bir evə" bənzədən Məmməd İsmayıl bir payız günündə ata yurduna, yiyəsiz evə qonaq kimi gələcək. Uşaqlıq xatirələrini yenidən xatırlamaq üçün taxtası çürümüş qapıya gözləri dolaraq baxacaq. İçin-için hey ağlayacaq. Bir zamanlar aş ətri qoxan, baryam şamı ilə gur işıqlanan ev indi sahibinin həsrəti qoxacaq, həsrətdən alışıb yanacaq. İndi o evdə nə işıq yanır, nə aş dəmlənir. Nə də bayram tonqalı qalanır.

Məmməd İsmayıl "hələ yaşamağa dəyər" desə də, bəzən insan yaşamaqdan usanır. Kimini səadət içində yaşadır, kimini səfalət. Bir zamanlar bir ana, bir bala nəşəsi ilə qızınan evin qapısını indi təkcə ağacdələn döyür. Böyük şair:

*Yol azmısan bu payızın çənində,*
*Ağacdələn, ağlın azıb sənin də,*
*Dən gəzirsən saçlarımın dənində*
*Atam oğlu, az qapımı döy görüm.*

deyərək sanki ağacdələnə acıqlanırdı. İllərdi qonaq qarşılamayan "Yetim ev"ə indi qonaq gəlmişdi. Bir zamanlar uşaq olub o evdə qaçan uşağın indi dən düşmüş saçlarından dən istəyirdi ağacdələn. Bəlkə də, Ağacdələn, doğrudan da, Gülzar ananın ruhu idi. Oğlunun gəlişinə sevinib qapını döyürdü ki, qapını açan olsun. Ya da atasından müjdə gətirən narahat ruhlar idi.

İllərin acılı-şirinli xatirələri qol-boyun olub yaşayır o evlərdə. Kəndlərdə yetim evlər çoxdur. Onlardan biri də Məmməd İsmayılı sinəsinə çəkib böyüdən ağacdələn döydüyü evdir. İndi o evin hey gözləri yol çəkir, köks ötürür, yol gözləyir, bu gözləyişdən usanmayan evdir o ev... Qaranquş yuva qurduğu evə hər il gəldiyi kimi, o evin sahibi də hər il olmasa da, mütləq gələcək deyə ümidini üzmür "Yetim ev".

*Yavaş-yavaş çürümədə taxta, bax.*
*O taxtada ovxam olan vaxta bax.*
*İnad olub nə döyürsən baxta-baxt, -*
*Açılmayan düyünləri duy görüm.*

Şairi şeirlərindən daha yaxşı tanımaq olur. Onun şeirlərini oxuyanda sanki özü sənə diktə edir.

*Hərdən üz çevirib taleyə, baxta,*
*Çıxdığı səfərdən qorxub qaçan var.*
*Bir adam yol gedir bizdən qabaqda,*
*Yaxşı ki, dünyaya cığır açan var.*

Bizdən öncə hər yerdə bir cığır açan olmasaydı, bəlkə də büdrəyərdik bu həyatda. Ölümə də cığır açan var, oluma da. Bizdən öncə yol gedənlər bizi arxasınca səsləyir.

Məmməd İsmayılı şeirlərindən tanıyıram. Şeirlərindəki nisgildən, kədərdən, həsrətdən tanıyıram onu. Azərbaycan ədəbiyyatının çağdaş şairlərinin ən hikmətli söz ustadlarından birini yaxından görmək, onunla üz-üzə dayanıb ürəyindən keçənləri söyləmək hər bir şeirsevərin arzusudur. Azərbaycan ədəbiyyatının M.İsmayıl, R.Rövşən, Xəlil Rza Ulutürk, Z.Yaqub, M.Araz, M.Yaqub, S.Rüstəmxanlı, Məmməd İlqar kimi azman yazarları ilə bir əsri paylaşmaq qürurvericidir. Həmişə Səməd Vurğunu həyatda görənlərə, onunla ünsiyyət quranlara qibtə etmişəm. Onların şeirləri ilə böyümək, ruhlanmaq, ilk sevgi hisslərini yaşamaq tamam başqadır.

Yubileyiniz mübarək, ustad!